

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*


*XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR*

# LERİK

№ 11 (5570) ✵ 20 Avqust 2016-cı il ✵ Qəzet 1937-ci ildən çıxır ✵ Rayonun ictimai-siyasi qəzeti ✵ Qiyməti 40 qəpik


## Mühüm vəzifələr qarşısında

*2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrlə bağlı rayon icra hakimiyyəti başçısının hesabatına həsr olunmuş Şuranın geniş iclası keçirildi*

**Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər və ictimaiyyətin nümayəndələrinin iştirak ilə "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn vəzifələr və 2016-cı ilin birinci yarısında Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr" barədə Şuranın geniş iclası keçirildi.**

Şura iclasını giriş nitqi ilə açan rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasda dövlət başçısı dünyada təhlükələrin artdığını, iqtisadi böhranın daha da dərinləşdiyini və ölkələrin bu böhrandan müxtəlif formada əziyyət çəkdiyini bildirdi. Cənab Prezidentin həyata keçirtdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda iqtisadi inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, respublika qarşısında duran vəzifələrin həll olunduğunu diqqətə çatdırdı.



Ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi reformalar rayonumuzun da sosial-iqtisadi inkişafına ciddi təsir göstərmişdir. Hazırda taxıl biçini kampaniyası uğurla davam etdirilir.

Daha sonra rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov geniş məruzə ilə çıxış etdi.

Şura iclasında rayon statistika idarəsinin rəisi Nizaməddin Muradov, mərkəzi xəstəxananın baş həkimi Mübariz Ağayev, Molalan kənd ərazi icra nümayəndəsi Ələkbər Kərimov çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.

Şura iclasına yekun vuran rayon icra hakimiyyətinin başçısı qarşıya qoyulmuş vəzifələrlə bağlı aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Şura iclasında qeyd olunan təkliflər və qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar qəbul olundu.

## MÖVCUD POTENSİALDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏLİDİR



**Bölgələrdə kənd təsərrüfatı işlərinin gedişi, bu sahənin inkişafı ilə əlaqədar mövcud ehtiyatların araşdırılması məqsədilə yaradılan İşçi qrupunun rayonda fəaliyyət göstərən sahibkarların, fermerlərin və mütəxəssislərin iştirakı ilə müşavirəsi keçirildi**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq, rayonlarda kənd təsərrüfatı işlərinin gedişinin, fermerlərin, torpaq mülkiyyətçilərinin təklif və istəklərinin, həmçinin, aqrar sektorun inkişaf perspektivlərinin öyrənilməsi və operativ tədbirlərin görülməsi məqsədilə yaradılan işçi qrupu avqustun 4-də Lerik rayonunda olmuş və rayon Mədəniyyət Mərkəzində rayonda fəaliyyət göstərən sahibkarların, fermerlərin və mütəxəssislərin iştirakı ilə kənd təsərrüfatı məhsulları istehsalının artırılması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrə dair müşavirə keçirilmişdir.

Müşavirədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Aqrar və sənaye məsələləri şöbəsinin müdiri, İşçi qrupunun rəhbəri Azər Əmiraslanov, Administrasiyanın Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Habil Əzənmədov, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirinin müavini Seyfəddin Talıbov, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirinin müavini Sahib Məmmədov, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyev iştirak edirdilər.

Müşavirədə giriş sözü ilə çıxış edən Lerik Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Cəlil Baxşıyev rayonda iqtisadiyyatın aparıcı sahəsi olan kənd təsərrüfatı işlərinin gedişi və bu sahədə mövcud vəziyyət və aqrar sektorun perspektivləri ilə bağlı məlumat verdi. Lerik rayonunda zəngin əkinçilik ənənələrin olduğunu, bu ənənələr bu gün də uğurla davam etdirildiyini qeyd etdi.

Bildirdi ki, rayonda kənd təsərrüfatına yararlı torpaq sahələri 61898 hektardır. Bundan 11433 hektar əkinə yaralı, 382 hektar çoxillik əkmələr, 2643 hektarı biçənəklər, 35971 hektar örüş torpaqları, 4950 hektar yay otlaq sahəsi, 40306 hektarı isə meşə fondu torpaqlarıdır. 2016-cı ildə cəmi 4255 hektar sahədə əkin aparılmışdır ki, bundan 2800 hektarda payızlıq, 2247 hektarda isə yazlıq bitkilər əkilmişdir.

Müşavirədə çıxış edən Prezident Administrasiyasının Aqrar və sənaye məsələləri şöbəsinin müdiri Azər Əmiraslanov bildirdi ki, cənab Prezidentin bu gün aqrar sahənin, xüsusi ilə qeyri neft sektorunun davamlı inkişafına nail olmaq məqsədi ilə qarşıya qoyduğu vəzifələrin icrasını təmin etmək üçün əlaqələndirici orqan kimi yaratdığı işçi qrupunun əsas məqsədi kənd təsərrüfatı sahəsində görülən işləri yerlərdə qiymətləndirmək və yerli icra orqanlarının bu sahədəki fəaliyyətini əlaqələndirmək, rayonlarda aqrar sahədə çalışanlarla keçirilən görüşlərdə kənd təsərrüfatı sahəsində mövcud olan potensialdan səmərəli istifadə edilməsi ilə bağlı təklifləri öyrənməkdir.



Lerik rayonunda aqrar bölmənin inkişafı sahəsində görülən işlər barədə məlumat verən natiq ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması ilk növbədə regionlardan, rayonlardan başlandığını qeyd etdi.

Lerikdə kənd təsərrüfatının uzun müddətli inkişafına yalnız daxili bazarda satılan məhsullarla deyil, rəqabət qabiliyyətli məhsulların xarici ölkələrə ixrac olunması ilə mümkün olduğunu diqqətə çatdırdı.

Azər Əmiraslanov kənd təsərrüfatı sahəsində dövlətin, fermerlərin və emal müəssisələrinin birgə əməkdaşlığının zəruri olduğunu qeyd edərək müşavirə iştirakçılarını açıq müzakirələrə dəvət etdi.

Diskussiya şəraitində davam edən müşavirədə çıxış edənlər rayonda aqrar sektorun inkişafı ilə bağlı taxıl, kartof, tütün, heyvandarlıq, arıçılıq, bağçılıq, tərəvəzçilik sahələrinin inkişaf etdirilməsi, emal müəssisələrinin (yun, süd, ət, bal) yaradılması, soyuducu anbarların, tədarük məntəqələrinin tikilməsi, "Aqrolizinq" rayon filialının yaradılması, güzəştli kreditlərin verilməsi məqsədi ilə "Aqrobankların" rayon filiallarının yaradılması, rayonda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə vergi güzəştlərinin tətbiq edilməsi, subartezian quyularının qazılması, su tutarlarının qurulması, torpaq analizlərinin aparılması, əvvəllər rayona təhkim olunmuş qış otlaq sahələrinin rayonumuza qaytarılması və digər təkliflərini bildirmişlər.

İşçi qrupun üzvləri verilən təklifləri təhlil edərək onların hər birinə müsbət yanaşılacağını qeyd etdilər.

Müşavirədən sonra işçi qrupun rəhbəri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının aqrar siyasət məsələləri şöbəsinin müdiri Azər Əmiraslanov, qrupun üzvləri "Xan-nad" Elmi İstehsalat Şirkətinin Peştətük kəndində tikilməkdə olan spirtsiz içkilər və şirə sexinə və Piran kəndində "Lerik-Broyler" MMC-yə baxış keçirdilər və istehsal prosesi ilə yaxından tanış oldular.

## LERİK RAYON KƏND TƏSƏRRÜFATI İDARƏSİNİN İNZİBATİ BİNASININ AÇILIŞI OLDU



**Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov, Kənd Təsərrüfatı Naziri Heydər Əsədov öncə ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.**

Sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Lerik Rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati binasının açılış mərasimi keçirildi. Rayon icra hakimiyyəti başçısı, kənd təsərrüfatı naziri və tədbir iştirakçıları inzibati binada yaradılan şəraitlə tanış olub, baytarlıq idarəsinə, Dövlət Toxum Müfəttişliyinin diaqnostik kabinetinə, Dövlət Baytarlıq və Fitosanitar Nəzarəti xidmətlərinin yerli qurumlarının iş otaqlarına, bitkiçilik və heyvandarlıq sektorlarının iş otaqlarına baxış keçirilmişdir. Nazir kənd təsərrüfatı texnikalarına sürücülük vəsiqəsinin elektron qaydada verilmə prosesi ilə tanışlıq olmuş, bir qrup mexanizatora sürücülük vəsiqələri təqdim edilmişdir. .

Daha sonra rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov və Kənd Təsərrüfatı Naziri Heydər Əsədov təlim təcrübə mərkəzində "Aqrolizinq" ASC-dən region üzrə güzəştli şərtlərlə texnika almış bir qrup vətəndaşlara sənədlər təqdim etdilər.

Sonra mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbul cədvəlinə uyğun olaraq, kənd təsərrüfatı naziri Heydər Əsədov yeni açılmış kənd təsərrüfatı idarəsinin inzibati binasında qəbul otağında Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarından olan vətəndaşları qəbul etdi.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin də iştirakı ilə keçirilən qəbulda 30 nəfərin müraciətinə baxılıb.

## VƏTƏNDAŞLAR QƏBUL EDİLDİ



**Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.**

Öncə Operativ İdarəetmə Mərkəzi ilə Piran kənd inzibati ərazi dairəsindən olan vətəndaş qəbul edildi. Piran kənd sakini Sədaqət Zeynalova yarımçıq qalmış fərdi evinin tikintisinə icazə verilməsini xahiş etdi. Ərazi icra nümayəndəsi məlumat verərək bildirdi ki, vətəndaş S.Zeynalova fərdi yaşayış evini pay torpağında tikdiyi üçün tikinti dayandırılmış və bununla bağlı onunla bağlı müvafiq izahat işi aparılmışdır. Lakin o, yenidən tikintiyə başlamaq istəyir. Rayon icra hakimiyyəti başçısı vətəndaşın müraciətinin araşdırılması və qanunamüvafiq tədbir görülməsi üçün Memarlıq və tikinti şöbəsinin müdirinə müvafiq tapşırıq verdi. Qanunvericiliyin tələbinə əsasən pay torpağında hər hansı tikintinin aparılmasının yolverilməz olduğunu vətəndaşa bir daha izah etdi.

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 21 nəfər vətəndaş qəbul olunaraq dinlənildi.

Şonaçola kənd sakini, şəhid qardaşı Elnur Məhərrəmov həyətinə gələn su xəttinin təmirinə, Babakücə kənd sakini Məhərrəm Qurbanov maddi vəziyyətinin çətin olması, güzəştli şərtlərlə kreditin verilməsinə, Lerik şəhər sakinləri, Valeh Əsədullayev işlə təmin olunmasına, Hava Ağayeva yaşadığı evin sənədləşdirilməsinə, Sorsçay kənd sakini Dəmir Zülfiyev xəstə uşağının müalicəsinə, Qələbin kənd sakini Ələsgər Məmmədov və Şivlə kənd sakini Bəybala Talıbov maddi yardım verilməsinə, Lerik şəhər sakini Tofiq Tağıyev və Barzavu kənd sakini Murad Əsgərov oğlunun işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etdilər.

Qəbulda olan vətəndaşlar tərəfindən qaldırılan problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi, müraciətlərin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

# HARADAN BAŞLANIR VƏTƏN?!

**Biz Vətənin bir parçasından yarandıq. Yəni odundan, suyundan, havasından, torpağından, qumundan. Bir qətrə nütfəyə Ulu Yaradan can verdi, ruh verdi, insan şəklinə salıb ona gözəllik verdi. Yarpaq- yarpaq böyüdük, ətə-qana dolduq. Yumruq boyda ürəyimiz aramsız döyündü, heç bir daimi mühərrikin görə bilmədiyi işi gördü. Əzaba dözdü, kədəri çəkdi, sevincə bələndi. Kainatın fövqündə duran varlığımız dünyanı silkələməyə qadir oldu. Varlığımızın sərkərdəsi olan ruhumuz və vicdanımız əqlimizi cilovladı, bu gözəl kainatı dağıtmağa imkan vermədi. İnsan təfəkküründən doğan atomun dünyanı dağıtması qarşısına da insan zəkası sipər çəkdi. Allahın hökmü ilə bəşəriyyət hələ ki, nüvə fəlakətindən uzaqdır. İnsan özü də başa düşür ki, yaratdıqları onu bir neçə saat ərzində məhv etməyə kifayətdir. Beləliklə, bəşər xilas və nicat yolu tapdıqca, dünyamız da fırlanır, qitələr, ölkələrlə yanaşı, vətənimiz də yaşayır, gələcəyə ümidini itirmir.**

Bəs bu qədər əzizlədiyimiz, bir parçasından yarandığımız Vətən haradan başlanır?

Bədii kitablarımdan biri "Hardan başlanır Vətən?" yazısı ilə açılır və mən onu ilk olaraq oxucuya təqdim etmişəm.

Belə yazmışdım: Dinimiz, imanımız, gümanımız, inamımız, Quranımızdı Vətən.

Əyilməyən qalamdı, daş yaddaşımdı, ən uğurlu çağımdı, ülvi qərarımdı, vüqarımdı Vətən!

Məncə ana bətnindən, evimizdən, elimizdən, yurdumuzun tarixindən, müqəddəs ruhumuzdan başlanır Vətən!

Ruhun müqəddəsliyini, insana hərəkətverici qüvvəsini unutmayın. Onu bir növ elektrik enerjisinə, atoma da bənzətmək olar. Onu bizə Allah bəxş edib, heç vaxt natəmizlik və murdarlıq götürməz. Ulu ruh saxtalığı, haramı, cırlaşmanı, əqidəsizliyi, binamusluğu, satqınlığı, nahaq qanı qəbul etmir!

Müqəddəs Qurani-Kərimdə ("İsra" surəsində) deyilir ki, sizdən ruh haqqında soruşduqda deyin ki, Rəbbin əmrində olan ruh barədə bizə az bilgi verilmişdir. Ruh gözə görünməsə də, o insanı canlandırır. Nəhayətsiz varlıq, böyük qüdrət mənbəyi, zamana və məkana sığmayan Allah onların fövqündə qərar tutur, yəni o zamanın və məkanın qanunlarına tabe olmur. Məşhur dünya filosofları, astronomları, təbiətşünas alimləri, fizikləri. pedaqoqları, ölkə başçıları böyük hikmət və fövqəladə qüdrət sahibi olan Allahın varlığını təsdiq edib, fitrət çağırışına müsbət cavab vermiş, daim ondan yardım diləmişlər, Allahı tək və yeganə bilmişlər. Nisbilik nəzəriyyəsinin yaradıcısı Albert Eynşteyn Allaha belə tərif verib deyir: "Kainat qabaqcadan Allah tərəfindən düşünülmüş şəkildə böyük bir nizamla yerli-yerində düzülmüşdür. Hərəkətdə olan planetlərin konfiqurasiyası zərrə qədər pozulsa, kainat məhv olar".

Bəlkə Allahın yaratdığı nizamı pozan ölkələri Ulu Yaradan cəzalandırır? Bir qismini isə təbii fəlakətlərə düçar edir. Nahaq axıdılan qanları, başqasının torpağını zəbt edən, sərvətlərini daşıdıranları bağışlamayan Allahın qəzəbindən qorxmayanların vay halına!



*Azərbaycanın Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinə böyük etimad bəsləyir: "Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki, bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir"*

Başqa millətlərin yabançı dinə mənsub olan fövqəldövlətlərin məkrli rəhbərləri bizi uzun müddət milli-mənəvi dəyərlərimizdən uzaqlaşdırmağa, özlərini bizə calaşdırmağa, millətimizi əridib yox etməyə, planlı şəkildə məkrli məqsədlərini həyata keçirməyə çalışıblar. Adət-ənənələrimizi, islami dəyərlərimizi əridib yox etmək üçün bütün vasitələrdən istifadə ediblər. Qədimlərdən şirin qonşuluq münasibətlərimizdən, qonaq üçün hər şeyimizdən keçməyimizdən, halallıqla yaşamağımızdan, namuslu və vicdanlı, ürəyi təmiz olmağımızdan, qan tökməyə həris olmamağımızdan bədxah qonşularımız ustalıqla istifadə ediblər. Biz həmişə gözü, könlü tox olmuşuq, özgə torpağına, malına, mülkünə göz dikməmişik, hətta özgə millətlərdən olan gəlinlərimizə namuslu, qeyrətli yaşamağı öyrətmiş, onları əyri yollardan çəkindirmiş, qoynumuzda uçqaq açmışıq. Bizim heç vaxt birgə yaşadığımız özgə millətlərə pis niyyətimiz olmayıb. Ruhumuzdakı əqidəmiz, mənliyimiz, soy-kökümüz, təfəkkürümüz, inamımız və imanımız ləkə götürməyib, murdarlıq götürməyib. Halala haram qatıblar, Qarabağ dərdimiz bağrımızı yara, bağımızı qara edib, doğrumuzu yalana, torpağımızı talana çeviriblər. Ana südü kimi pak, ata çörəyi tək halal və bərəkətli əllərimiz-obalarımız üçün ac canavarlar yerikləyiblər. Torpağımızdan pay ayırmağımız bir yana, ürəyimizi oğurlayanlar da çox olub. Axçılərə, tanyalara qucaq açıb ata yurdunu yetim, bulaqların gözünü kor qoymuş, mərd sinəmizi namərd gülləsinə tuş etmişik. Ruhumuzun saxlancını - iç dünyamızı kafirlərin, yad nəfəslərin, ünsürlərin üzünə açmış, ləzzətimiz sonda iztiraba çevrilib. Özümüzə, ruhumuza, şanlı tariximizə xəyanət etdikcə Xətai yurdunun sərhədləri daralıb, hər əsrdə Vətənimizi dədələrinin malı kimi yamğalayıblar, bəzən də müsəlmanları üz-üzə qoymaqla maddi, mənəvi, psixoloji sarsıntıları inamsızlığa çevirib, sahibsizliyə məruz qoyublar bizi. Bəlkə nəfsimizə aldanıb özümüzü unutmuş, ruhumuza qarşı biganə qalmışıq? Bəlkə Tanrı ilə aramızdakı mənəvi rabitə qırıldığı üçün bizi cəzalandırıb?! Şəhidlərin pak və nigaran ruhları, ana-bacılarımızın ərşə dirənən ağıları şeytanla, qarı düşmənlə mübarizəyə çağırır bizi!



Ruhumuz hayqırıb nərə çəksə, düşmən məhv olub əriyər. Bunun üçün birlik, birlik, yenə də birlik gərəkdir.

***Zəngilanla Xatın zəngləri çalınmasın, gərək!***

***Ağdam qara damlar məzarına dönməsin!***

***Füzulidə şairin misraları yanmasın gərək!***

***Kəlbəcər eybəcər düşmənə qalmasın!***

***Düşmən Şuşada səsimizi əsir almasın!***

***Laçından heç kəs qaçıb getməsin!..***

***Azərbaycan əsgəri, səninləyəm!***

***Çadırlarda yuva quran didərginlərin, gözü yaşlı körpələrin gözü səndədir!***

Minlərlə igid azərbaycanlı oğul və qızları ruslarla birlikdə faşist Almaniyasına qarşı vuruşdu, qan tökdü, çoxu öldü, evinə şikəst qayıtdı, bədənində qəlpə gəzdirdi. Rus tanklarının və aviasiyasının 70 faizi Bakı nefti ilə hərəkətə gəldi. Yorğanımızı sökub isti paltar tikdik, qızgəlinlərimiz qulaqlarındakı sırğaları, barmağındakı üzükləri çıxarıb cəbhəyə göndərdilər ki, döyüşən ordu qalib gəlsin. Amma barama qurdu kimi yeyib-şişən, çölə çıxa bilməyən "böyük qardaşları"mız nə etdilər? Azərbaycanı istədikləri kimi idarə edib sərvətlərini daşıdılar, repressiya maşını azadlıq carçılarımızı Sibirdə çürütdü. Ötən yüzillikdə bizə Qara yanvarı, Daşaltı, Xocalı, Qarabağ qətliamını yaşatdılar. Tarixi düşmənlərimiz Aqambeqyanın fitvası ilə Qorbaçovu ələ aldılar, imperiya ordusunun köməyi ilə Qarabağı oda qaladılar, əliyalın, silahsız, günahsız əhaliyə divan tutdular. Heç bir insanlıq ölçülərinə sığmayan erməni vəhşiliyi, qətliamı hitlerçi faşistləri də ötüb keçdi. Allah onlara min lənət eləsin! Şəhidlərimizin, girovlarımızın, düşmənin murdarladığı torpaqlarımızın qisasını almaq, Mübariz kimi düşmənə sarsıdıcı zərbə vurmaq, qəti mübarizə aparmaq misyası bizlərə həvalə olunub. Mübarizə sözü çox tutumlu məfhumdur. O bizə haqqı-ədaləti, kişiliyi, mərdanəliyi amal uğrunda canı fəda etməyi, Vətəni qorumağı, millətlər içində millət olmağımızı sözdə, arzuda deyil, işdə, əməldə sübut eləməyi, dövlətçiliyimizə həmişə sədaqətli olmağı, ən nəhayət, daxili bir ruhani mücadiləsi ehtiva edir...

Gənc dost, Vətənə məhəbbət qanımızdadır. Bu məhəbbət harada yaşamasından asılı olmayaraq gələcəyimizin daşıyıcıları olan Azərbaycan gənclərinin qanına, iliyinə, ruhuna, əqidəsinə hopmalıdır. **Azərbaycanın Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinə böyük etimad bəsləyir: "Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki, bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir".** Bu, həqiqətən də belədir. Torpağımız Məkkə, Mədinə torpağı tək əzizdir, müqəddəsdir. Çünki, bu torpaq şəhid qanı əmib, igid balasını ana qucağına alıb. Bu qan güləçiçəyə dönüb, torpaqdan boy alıb. Bu qan şəhidlik rütbəsinə, qəhrəmanlıq zirvəsinə ucalan, yeri cənnət olan şəhidlərimizin qanıdır, vətənə ərməğandır!



Azərbaycan əsgəri, Babəkin, Koroğlunun, Cavanşirin, Həzinin, Səməd bəyin varisisən. Unutma, onlara "məğlub" kəlməsi yad olub.

Sən zirvələrin zirvəsisən, çox ucasan, Azərbaycan əsgəri, çünki haqq-ədalət səninlədir. Ucaların dövrəsində aprel döyüşlərini - Lələtəpəni, Bayraqtəpəni, şəhidlərimizi unutma!

Şəhid verib azad etdiyin bu yurd, bu torpaq, bu Vətən sənindir. İndi həsrət ilə baxdığın o dağlar, dərələr, meşələr, çöllər oylağınız olacaq - buna az qalıb. Ot basmış cığırlar, ayaq səslərindən oyanmış torpaq sənin olacaq, ayıq ol ancaq!

Göz-gözə nəfəs alan, çiyin-çiyinə vuruşan, səngərboyu keşik çəkən Azərbaycan əsgəri, qoru Vətəni, qoru özünü.

Kişinin qeyrəti, varı-dövləti Vətəndir - Vətəni qoru!

***On beş il əvvəl "Azərbaycan əsgərinə" müraciətlə yazmışdım:***

***Şəhidlərin göyərən məzarları, sərkərdan gəzən ruhları, mərminin şumladığı Vətən torpaqları, atasız böyüyən şəhid uşaqları qisas gözləyirlər, Azərbaycan əsgəri!***

***Azərbaycan əsgəri! Çadırlarda yuva quran didərginlərin, gözü yaşlı körpələrin gözü səndədir.***

***Azərbaycan əsgəri! Vətəndən, torpaqdan, namusdan pay olmaz!***

***Yağıları həsrət saxla Qarabağ torpağına, daşına. Şir tək atıl yurdun haqq savaşına!***

***"Qarabağım" adlı mənsur seçimdən bu sətirləri xatırlayıram:***

***Qarabağım! Ormanlarda qıyya çəkən dağ qartalım, şah vüqarım, didərginlər diyarım. Zirvəsi göyə çatan Murovum, Dəlidağım!***

***Möhkəm dayan, Qarabağım! Yetər, iblis at oynatdı, güllə atdı, od yandırdı, yurd talandı.***

***Bəsdi daha! Boş söz oldu qərar, fərman! Öz çarəni özün axtar, çırağını özün yandır! Torpağı qorusaq, onda Vətəndir.***

***Torpağı qoruyaq, Vətəni qoruyaq!***

Sinəmizlə qoruyaq, Qarabağı qoruyaq!

Dünya şöhrətli dövlət başçısı, qolubükülməz sərkərdə, diplomat və şair Şah İsmayıl Xətai deyirdi: "Xəyalən olsa da məmləkətin ətrafında at cövlan etdirməlisən". Vətənlə məmləkət, millət, yurd eyni məfhumlardır. Vətənsiz mənliyimiz, varlığımız, əqidəmiz, nəfəsimiz, əbədiyyətimiz, torpağımız yoxdur.

Müqəddəs Qurani-Kərimdə yazılıb ki, Vətəni qorumaq imandandır, Vətənə borclu candı, kükrəyib-coşan qandı Vətən. Mənliyimiz, mahiyyətimiz, varlığımız qoynu bizə ana qucağı tək şirin olan Vətəndən başlanır, Vətən təkcə dağdandaşdan ibarət deyil. Ruhumuzun qalasıdı, qəlbimizdə qalasıdı Vətən. Vətən qoruduğumuz sərhəddən, məmləkətin bayrağından başlanır. Varlığımızdı, bayrağımızdı, ən ülvi çağımızdı Vətən!

***İdris Şükürlü,***
***yazıçı-jurnalist***

**Bu yazı KİVDF-nin hərbi vətənpərvərlik və milli -mənəvi dəyərlər mövzusunda elan etdiyi müsabiqəyə təqdim etmək üçündür**

# STATİSTİKANIN DİLİ İLƏ



Ümumi təhsil. 2015\2016-ci dərs ilinin əvvəlinə Lerik rayonunda (şəhərdə) fəaliyyət göstərən 107 dövlət gündüz ümumtəhsil məktəblərində 7505 nəfər şagird təhsil almış və ötən dərs ili ilə müqayisədə onların sayı 172 nəfər və ya 3,0 faiz azalmışdır.

Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün rayonomuzda ayrıca xüsusi məktəb, ancaq ümumtəhsil məktəblərində xüsusi siniflər fəaliyyət göstərmiş və onlarda 66 nəfər uşaq təhsil almışdır. Gündüz ümumtəhsil məktəblərində maddi-texniki bazanın yeniləşdirilməsi prosesi davam etməkdədir. Sfkş vükı şdştvü 2 məktəb binası tikilib istifadəyə verilmişdir. Rayonda hkef ğüleüi iştflarıtgt 7%-i mü üıfı ğüleüi iştfdfkgtgt 20%-üıfıdg eüğşkü ureşnfsg mfkvgk. Rayonun şəraitinə müvafiq olaraq əksər məktəblərin sinif otaqları ancaq odun sobaları ilə qızdırılır. Ancaq son illərdə 15-16 məktəbdə kombi sistemi qurulmuşdur.

2015-ci ildə ümumtəhsil məktəblərini 541 nəfər bitirmiş və 541 ümumi orta təhsil haqqında attestat almışlar.

Peşə təhsilli şəhərdə peşə təhsil verən bir məktəb fəaliyyət göstərir və bu məktəb orta təhsil vermir. Peşə məktəbi, xalçaçılıq və dərzilik peşələrini 2 il, saç ustası, elektrik montyoru və qadın bərbəri ixtisaslarını 1 il müdətinə öyrədib peşə təhsilli mütəxəssislərini istehsalata göndərir.

Rayonda orta məktəbi bitirən yüzlərlə gənc hər il respublikanın ali məktəblərinə daxil olaraq təhsillərini davam etdirirlər. Bunula yanaşı rayon sakinlərindən Türkiyənin, İranın, Rusiyanın ali məktəblərində təhsil alanlar da vardır. Cari dərs ilinin əvvəlinə ali məktəblərin əyani şöbələrində tələbələrin 8,3%-i, qiyabi şöbələrində 1,5%-i və axşam şöbələrində 0,9%-i təhsil alırlar.

Rayonda müşahidə olunan kinoteatrlar, klublar, kütləvi kitabxanalar şəbəkəsinin azalması onların populyarlığının aşağı düşməsi və bura gələnlərin sayının azalması nəticəsində baş verir. Eyni zamanda bu proses, xüsusilə gənclər arasında tamaşaçı marağının dəyişməsinə fəal təsir edir, əyləncə və asudə vaxtın keçirilməsinin yeni növlərini təklif edən şoubiznesin inkişafı və məhşurlaşması ilə geniş bağlıdır. Bundan başqa, maddi-texniki bazanın geridə qalması nəticəsində cəmiyyətin mədəniyyət istehlakçıları ilə onların ənənəvi mədəniyyət və incəsənət müəssisələrindən istifadə etmək imkanları arasında fərq getdikcə daha çox artır. Digər amillərlə yanaşı, maddi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə əhalinin əlavə qazanc əldə etməsi asudə vaxtın məhdudluğuna səbəb olur bu da müəssisələrə gələnlərin sayının azalmasına təsir edir.

Pensiya təminatı. 2016-ci ilin əvvəlinə Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbəsində 10859 nəfər pensiyaçı qeydiyyatda olmuşdur və onların sayının azalması "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Qanunlara uyğun olaraq, sosial pensiyaların sosial müavinətlərlə əvəz edilməsi ilə əlaqədardır. Pensiyaçıların 5252 nəfəri yaşa görə, 3677 nəfəri əlilliyə görə, 1930 nəfəri isə ailə başçısının itirilməsinə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 147.46 manat təşkil etmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rayon (şəhər) şöbəsinin məlumatlarına əsasən, ötən il 3246 nəfərə sosial müavinət təyin olunmuş və 1 nəfərə düşən orta aylıq məbləğ 47.08 manat olmuşdur. 2016-ci il yanvar ayının 1-i vəziyyətinə rayonda (şəhərdə) 4796 nəfərə ünvanlı dövlət sosial yardımı verilmiş və 1 nəfərə düşən orta aylıq məbləğ 30.45 manat təşkil etmişdir.

Səhiyyə. Əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün rayonda (şəhərdə) bir çox sosial təyinatlı obyektlər fəaliyyət göstərir.

2016-cı ilin əvvəlinə rayon (şəhər) əhalisinin sağlamlığını qorumaq məqsədilə 7 xəstəxana, 26 ambulator-poliklinika müəssisələri fəaliyyət göstərirdi ki, onlarda da 53 həkim və 166 orta tibb işçisi çalışırdı. Beləliklə, rayon (şəhər) əhalisinin hər 10000 nəfərinə 6,7 həkim, 20,1 orta tibb işçisi, 22,5 xəstəxana çarpayısı düşür. 2015-ci il ilə müqayisədə həkimlərin sayı 1 nəfər azalmışdır, orta tibb işçilərinin sayı isə 5 nəfər artmışdır. Xəstəxana çarpayılarının sayı isə 180 də qalmışdır. Rayonda ambulator poliklinik müəssisələrinin gücü 589 olmaqla rayon əhalisinin hər 10000 nəfərinə 73,5 olmuşdur.

Əhalinin sağlamlığının qiymətləndirilməsinin əsas göstəricilərindən biri də xəstələnmə hallarından ibarətdir. Rayonda (şəhərdə) ötən il qeydiyyata alınmış xəstəliklər arasında yft vbmkftı xəstəlikləri, tənəffüs orqanları xəstəlikləri, onkoloji xəstəlikləri üstünlük təşkil etmişdir.

İdman. 2015-cı ildə rayonda 143 idman qurğusu fəaliyyət göstərirdi. Onlardan 8998 nəfər idmanla məşğul olur. 1,5 min və daha çox yer tutan stadion fəaliyyət göstərərək idmançıların öhdəsindədir. Rayon (şəhər) əhalisinin 8998 nəfəri və ya 11,3 faizi bədən tərbiyəsi ilə məşğul olur ki, bunlardan da 3803 nəfəri və ya 4,2% qadınlardır.

Rayonumuzda ulu öndərimiz Heydər Əliyevin ad gününə və digər bayramlara həsr olunmuş müxtəlif idman yarışları keçirilərək qaliblərə mükafatlar verilir. Belə kütləvi idman tədbirləri gənc nəsilin asuda vaxtının səmərəli keçməsinə və beləliklə gənclər arasında hüquq pozmaların tamamilə aradan qalxmasına xeyli köməklik göstərir.

***Ramin Şahiyev,***
***Rayon Statistika İdarəsi müdirinin müavini***

# "KİTAB BEŞ MİN İLDİR YOL GƏLƏN MÜDRİKDİR"

***Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.***

***Heydər Əliyev***

Kitabxana insanların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsidir.

Kitabxana bitib-tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləməklə yanaşı, insanların məlumat bazasının zənginləşdirilməsinə və elmi dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin maariflənməsinə xidmət göstərir. Kitab bilik mənbəyi olmaqla yanaşı, mədəniyyət daşıyıcısıdır. Kamil insan, həqiqi vətəndaş, müasir dünyagörüşlü gənclər formalaşdırmaqla bir vasitə kimi çıxış edir kitabxanalar...

XXI əsrin informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminatının təşkilində ifadə olunur.

Ənənəvi kağız kitablarla yanaşı elektron kitablardan istifadə diqqət çəkir və get-gedə elektron kitablara da maraq artır. Düzdür, kağız kitabların çatdırılması elektron kitablara nisbətən daha çox zaman tələb edir, daha çox yer tutur. Amma onun elə "fəzilətləri" var ki, hətta məncə, insanlar əlli il sonra gözlə işləyən, sözlə çevrilən, hətta özü-özünü oxuyan, barmaq işarəsi ilə səhifələrini dəyişən elektron kitablar ixtira etsələr də, kağız kitabları atmamalıdırlar, özlərini ondan məhrum etməməlidirlər.

Elektron kitabxana-informasiva cəmiyyətinin baza prinsiplərinə: informasiyanın əmtəəyə çevrilməsi, informasiya bazarının formalaşması, cəmiyyət üzvlərinin peşə və təhsil hazırlığının yüksəlməsinə, qlobal informasiya mühitinin yaranmasına xidmət edir. Elektron kitabxana oxuculara informasiya xidmətinin kompüterləşməsinin nəticəsi olub, yalnız bir xidmət növüdür.

O, uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur.

Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda oxuculara



***Tərxan Feyziyev,***
***Lerik rayon MKS-nin direktoru***

göstərildiyi halda, elektron kitabxana sutkanın iyirmi dörd saatı müddətində, fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir.

Bununla belə kağız kitablara da müraciət olunmalıdır. Bəzən köhnə bir kitab keçir əlinizə, vərəqləyirsiniz, çox qəribə qoxusu vurur burnunuza və bu qoxu sizi çəkib haralara aparmır ki.. gəncliyinizə, uşaqlığınıza, sizə çox təsir edən bir romana, bir hekayəyə... Kitabla elektron kitabı qarşı-qarşıya qoymaq bir mənada doğru deyil, çünki elektron kitab kağız kitaba alternativ ola bilər, amma kitaba yox.

O sadəcə kitabın bir növüdür. Amma bir həqiqət var ki, kitab kitab olaraq qalacaq, səhifələri kağızdan olmasa da, qoxusuz olsa da...

# VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

## BİLDİRİŞ

*Əmək müqaviləsinin tətbiqi barədə*

**Hörmətli vergi ödəyicisi!**

Bildiririk ki, Əmək Məcəlləsinə əsasən işəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalıdır. Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (<https://www.e-gov.az/az/dogin/?retğrn=/az/services/read/3188/>) əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsi kimi müəyyən edilmişdir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən ASAN İmzası olmalıdır.

Asan İmza barədə ətraflı məlumatı Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az <http://www.taxes.gov.az>) daxil olmaqla və Çağrı Mərkəzinin 195-1 nömrəsinə zəng etməklə ala bilərsiniz. Vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla ASAN İmza sertifikatını ala bilərsiniz.

Xatırladırıq ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 192.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

***Vergilər Nazirliyi***

## VERGİ ORQANLARINA TƏQDİM OLUNAN SƏNƏDLƏR BARƏDƏ

**BİLDİRİŞ**

**Hörmətli vergi ödəyicisi!**

Bildiririk ki, Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin uçotu və fəaliyyəti ilə bağlı ərizələrin, arayışların əksəriyyətinin vergi orqanına elektron qaydada təqdim edilməsi üçün imkan yaradılmışdır.

Vergi ödəyiciləri tərəfindən Vergilər Nazirliyinə daxil olan sahibkarlıq fəaliyyətlərinin dayandırılması, təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması, ləğv edilməsi, vergi öhdəliklərinin yaranmaması haqqında arayışların verilməsi, vergi orqanları ilə elektron qaydada yazışma məqsədi ilə alınmış şifrə-parolların dəyişdirilməsi əsasən sadə poçt göndərişi ilə daxil olur. Poçt şöbələrindən alınmış rəsmi məlumatlarda sənədlərin (ərizə, arayış və s.) sadə poçt göndərişi kimi qəbul edilməsi səbəbindən onları təqdim edən şəxsin (şəxslərin) kimliyinin müəyyən edilməsinin mümkün olmaması halları yaranır.

"Poçt haqqında" Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanununa əsasən "Sadə poçt göndərişi" dedikdə göndərilmək üçün istifadəçidən qeydiyyat aparılmadan və qəbz verilmədən qəbul olunan, çatdırılan zaman isə ünvan sahibindən heç bir imza tələb olunmayan poçt göndərişi, "Sifarişli poçt göndərişi" dedikdə isə göndərilmək üçün qəbul olunduğuna dair istifadəçiyə qəbz verilməsi, çatdırılarkən isə ünvan sahibinin müvafiq sənədi imzalaması tələb olunan poçt göndərişidir.

Yaranacaq mübahisələrin aradan qaldırılması üçün vergi ödəyicilərinin uçotu və fəaliyyəti ilə bağlı sənədlərin o cümlədən, fəaliyyətin dayandırılması, təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması, ləğv edilməsi, vergi öhdəliklərinin yaranmaması haqqında arayışların verilməsi, vergi orqanları ilə elektron qaydada yazışma məqsədi ilə alınmış şifrə-parolların dəyişdirilməsi ilə əlaqədar ərizə və arayışların elektron qaydada və ya sifarişli poçtla vergi orqanlarına təqdim edilməsi Sizə tövsiyə olunur.

Əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, Nazirliyin rəsmi internet səhifəsinə (www.taxes.gov.az <http://www.taxes.gov.az>), 6 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinə və ya Vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***6 saylı Ərazi Vergilər İdarəsi***

**BİLDİRİŞ**

***Ciddi hesabat blanklarından istifadə barədə***

**Hörmətli vergi ödəyicisi!**

Bildiririk ki, 2016-cı ildə ƏDV qeydiyyatına alınmağınıza baxmayaraq, tərəfinizdən ciddi hesabat blankı olan qaimə-faktura çap etdirilmədiyi və nəzarət kassa aparatı quraşdırılmadığı müəyyən edilmişdir.

Vergi Məcəlləsinin 16-cı maddəsinə əsasən qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunu aparmaq, nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Vergi Məcəlləsinin 130-cu maddəsinə əsasən vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa borcludur.

Nazirlər Kabinetinin 27 avqust 2004-cü il tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"na əsasən təşkilati-hüquqi formasından asılı olmayaraq təşkilatlar və fərdi sahibkarlar maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini əks etdirən əməliyyatları forma və rekvizitləri Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş ilkin uçot sənədi hesab edilən ciddi hesabat blankları ilə rəsmiləşdirməlidilər.

Vergi Məcəlləsinin 176-cı maddəsinə əsasən ƏDV-nin ödəyicisi ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərilməsi və ya xidmət göstərilməsi halları istisna olmaqla, malları, işləri və ya xidmətləri qəbul edən şəxsə elektron vergi hesab-fakturasını mal göndəriləndən sonra 5 gündən gec olmayaraq verməyə borcludur. Malların (işlərin və ya xidmətlərin) alıcısı ödənilmiş ƏDV məbləğlərini Vergi Məcəlləsinin 175-ci maddəsinin müddəalarına uyğun olaraq hesablanan verginin ödənilməsini təsdiq edən ödəmə sənədi əsasında əvəzləşdirə bilər.

Xatırladırıq ki, nağd pul hesablaşmalarının aparılması qaydasının pozulması, xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsi və ya uçota alınmaması Vergi Məcəlləsinin 58.7-ci və 58.8-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***6 saylı Ərazi Vergilər İdarəsi***

**Hörmətli vergi ödəyicisi!**

Bildiririk ki, vergi ödəyicilərinin maliyyə itkilərinə məruz qalmamaları üçün Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin mobil telefon nömrələrinə 195 Çağrı Mərkəzi Departamenti vasitəsilə aşağıdakı mövzularda SMS-lər göndərilir və bu xidmətlərin sayının artırılması nəzərdə tutulur:

- bəyannamələrin təqdim edilməsinin müddət və qaydaları;
- vergi qanunvericiliyi və inzibatçılığında edilmiş yeniliklər;
- dövlət büdcəsinə olan borcun məbləği;
- vergi orqanının qanuni tələbləri;
- maliyyə sanksiyalarının ləğv olunması və s.

Lakin, vergi orqanının uçot-baza məlumatlarında mobil telefon nömrəniz barədə məlumat əks etdirilmədiyindən qeyd olunanlar barədə məlumatların Sizə çatdırılması imkanı itirilmişdir.

Qeyd olunan sahədə görülən işlərin səmərəliliyinin artırılması, vergi risklərinin minumallaşdırılması məqsədilə Sizə məxsus işlək mobil telefon nömrəsi barədə məlumatın vergi orqanına təqdim edilməsi xahiş olunur.

Əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin 195-1 nömrəli Çağrı Mərkəzinə, 6 saylı Ərazi Vergilər İdarəsinə və ya Vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***6 saylı Ərazi Vergilər İdarəsi***

## ELAN

Asan İmza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, Asan İmza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsi ilə www.asxm.qov.az/portal/loqin <http://www.asxm.qov.az/portal/loqin> portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnaməlri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək verqi ödəyicilərinə xidmət mərkəzlərinə və ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN İmza ilə əlaqədar əlavə sualınız yaranarsa Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının "Sual-cavab" bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html <http://www.taxes.gov.az/www.taxes/faq/sual.html>) və www.asxm.gov.az <http://www.asxm.gov.az> internet ünvanına müraciət edə bilərsiniz.

***Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi***

## Diqqət, sürücülərin nəzərinə

# RAYON ƏRAZİSİNDƏ "TƏMİZ HAVA" AYLIĞI TƏDBİRİ KEÇİRİLİR

**Əziz sürücülər! Yay mövsümünün başlanması ilə əlaqədar rayonun istirahət obyektlərinə gələn turistlərin sayı artmış və bununla bağlı küçə və yollarda nəqliyyat vasitələrinin hərəkət intensivliyi xeyli yüksəlmişdir. Təhlillər göstərir ki, bir çox sürücülər hərəkət intensivliyini, yol və meteoroloji şəraiti nəzərə almadan nəqliyyat vasitələrinin texniki imkanlarına güvənərək, onları riskli idarə etməklə hərəkətin digər iştirakçılarına təhlükəli şərait yaradırlar. Odur ki, yol-qəza hadisələrinin qarşısının alınması üçün hərəkətin təhlükəsizliyinin təmin edilməsi yol polisi əməkdaşlarının qarşısında vacib məsələ kimi durur.**

Cari ilin 6 ayı ərzində yol hərəkəti qaydalarını pozan 339 sürücü barəsində inzibati protokol tərtib edilmişdir. Onlardan 8-i nəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edən, 25-i sürücülük hüququ olmadan idarə edən, 75-i avtomobillərin texniki baxışdan keçirməyən, 47-si təhlükəsizlik kəmərindən istifadə etməyən, 35-i dayanma, durma, parklanma qaydalarını pozan, 27-si manevretmə qaydalarını pozan və digər qayda pozuntularına yol verən sürücülərdir.

Avqustun 1-də yük avtomobillərindən başqa, bütün avtomobillərin texniki baxışdan keçmə müddəti başa çatmışdır. Texniki baxış nəqliyyat vasitəsinin istehsal ilindən asılı olaraq həyata keçirilir. 2016-cı il istehsallı avtomobil texniki baxışdan keçdikdən sonra 4 il müddətində bu prosesdən azad olur. Yəni 2016-ci il istehsallı avtomobil 2020-ci ildək texniki baxışdan keçirilmir. Sonrakı illər ərzində isə bir il ara verilməklə texniki baxışdan keçirilir. Nəqliyyat vasitəsinin istehsal müddəti 10 il tamam olduqdan sonra hər il keçirilir. Məsələn, 2012-ci il istehsallı avtomobillər texniki baxışdan 2017-ci ildə keçəcək. 2011-ci il istehsallı avtomobillər isə texniki baxışdan bu il keçməlidir.

Rayon ərazisində 148 ədəd hüquqi şəxslərə məxsus,



**Xanhüseyn Səmədov,**
Lerik RPŞ-nin DYPB-nin rəisi, polis mayoru

2892 ədəd isə fərdi nəqliyyat vasitələri qeydiyyatdadır. Hüquqi və fiziki şəxslərdən xahiş olunur ki, istifadələrində olan nəqliyyat vasitələrini müəyyən edilmiş müddətlərdə dövlət texniki baxışına təqdim etsinlər. Əks təqdirdə həmin şəxslər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 339.1-ci maddəsinə görə məsuliyyət daşıyırlar. Həmin maddəyə əsasən fiziki şəxslər 50 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər isə 300 manat məbləğində cərimə edilirlər. Əgər sürücü cərimələnibsə, o, 10 gün ərzində avtomobili texniki baxışdan keçirməlidir və bu müddət ərzində onu təkrar cərimələyə bilməzlər.

Cari ilin 6 ayı ərzində 1 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə ölən olmamış, 1 nəfər xəsarət almışdır.

2015-ci ilin 6 ayı ərzində isə rayon ərazisində 4 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə ölən olmamış, 8 nəfər xəsarət almışdır.

Keçən illin müvafiq dövrü ilə müqayisədə bu il hadisələrin sayı 3 fakt, xəsarət alanların sayı isə 7 nəfər azalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2004-cü il tarixli 517 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Resbulikasında demokrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın icrası ilə əlaqədar tədbirlərin davamı olaraq avtonəqliyyat vasitələrindən atılan zəhərli tullantılarla atmosfer havasının çirklənməsinin qarşısının alınması işinin səmərəsinin artırılması üçün 2016-cı ilin avqust ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə respublikada, o cümlədən Lerik rayonunda "Təmiz hava" aylığı keçirilir.

Qeyd etmək lazımdır ki, Dövlət Proqramı çox mühüm sahəni əhatə edir. Proqramın icrası ilə əlaqədar avtonəqliyyat vasitələri tərəfindən atılan zəhərli tullantılarla atmosfer havasının çirklənməsinə nəzarət artırılmışdır. Aylıqda əməkdaşlarımız təsdiq olunmuş tədbirlər planına əsasən fəaliyyət göstərirlər. Reyd və yoxlamalar Lənkəran şəhər 1 saylı ərazi üzrə Ekologiya və Təbii Sərvətlər Şöbəsinin əməkdaşları ilə birgə keçirilir. Aylığın atmosfer havasının mühafizəsində rolu və əhəmiyyəti mövzusunda diskussiyalar keçirilir. Yollarda hərəkət edən avtomobillərin mühərriklərinin işlənmiş qazlarının tərkibindəki zəhərli maddələrin miqdarına nəzarət gücləndiriləcək ölçülür.

Sürücülər idarə etdikləri avtomobillərin mühərrikindən çıxan işlənmiş qazların miqdarının çox olmasına görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 342.5-ci maddəsinə görə məsuliyyət daşıyırlar və həmin maddəyə əsasən 50 manat məbləğində cərimə nəzərdə tutulmuşdur.

Əziz sürücülər! Sükan arxasında diqqətli olun və yol hərəkəti qaydalarına ciddi riayət edin! Avtomoillərinizi saz, istismara yararlı vəziyyətdə saxlayın. Ekologiyanın çirkləndirilməsi sağlamlığımıza, fauna və floraya ziyan vurur. Yol hərəkəti qaydalarının pozulması yol-nəqliyyat hadisələrinin baş verməsinə bu isə insanların xəsarət almalarına və həlak olmalarına gətirib çıxarır.

***Xanhüseyn Səmədov,***
***Lerik RPŞ-nin DYPB-nin rəisi,***
***polis mayoru***

# "Sinəm var - namərd deyiləm"

**Tanınmış publisist, "Söz" jurnalının baş redaktoru Sevda Əlibəylinin şair-publisist, oğlumuz Allahverdi Məmmədli barədə xatirə kitabı yazmaq təşəbbüsü mənə təəccüblü gəlmədi. Çünki Allahverdi Məmmədli aramızdan, söz adamlarının sırasından tez getsə də, onun yaradıcılıq yolu, əsərləri, şəxsiyyəti, alovlu vətəndaş və ziyalı mövqeyi onun barədə hər cür tərifəlayiq söz deməyə əsas verir.**

O, hər şeydən əvvəl, müasir poeziyamızda və jurnalistika aləmində öz dəstxətti, üslubu ilə seçilən söz adamı, qələmi, əməli və amalı bir olan kamil insan, istedadı ilə seçilən, ürəyi gözlərində oxunan adam idi. Ortaboylu, çəlimsiz, lakin pələng ürəkli, saf dilökli Allahverdi Məmmədli şəhərdə yaşasa da, kəndi unutmurdu, uca, yaşıl dağlara, elobaya vurğun idi, milli-mənəvi dəyərlərimizi həmişə uca tuturdu. O, hələ 1972-ci ildə "Kəndə məktub" şeirində yazırdı:

Qar kəsdi, qış kəsdi yolumu, neynim...

Dağ kəsdi, daş kəsdi yolumu, neynim...

Kövrəldim, yaş kəsdi yolumu, neynim...

Gəlib gülüşünü öpə bilmədim.

Allahverdi Məmmədlinin oxucunu düşündürən çoxlu poetik deyimləri, poema, resenziya publisist yazıları, oçerkləri vardır. Hiss edirdim ki, şair eloğlum nə deyibsə düşünüb-daşınıb deyib, yüz ölçüb - bir deyib, sözə, fikrə, mənaya, gerçəkliyə, haqqa-ədalətə xəyanət etməyib. 1996-cı il yaxşı yadımdadır. Əsli-kökü Lerik rayonundan olan və yurdumuzun Qarabağ savaşında ölüm-dirim döyüşünə atılan, vətən, torpaq yolunda canını fəda edən şəhidlərə həsr olunmuş kitab diqqətimi cəlb etdi. Onun müəllifi jurnalist İdris Şükürlü idi. Kitabın üzündə və cildin arxasında diqqəti cəlb edən, qara fonda qırmızı rəngli mərmilərin yandığı əksini tapan, üstündə sahibi olmayan ağ atın kəndə şad xəbər apardığını bildirən rəsmlər çox düşündürücü idi. Bir dəstə adam işə şəhidlərin məzarı önünə gül dəstələri qoyurdu. Kitabın redaktoru Allahverdi Məmmədli, rəssamı "Ulduz" jurnalının rəssamı Ədalət idi. Allahverdi müəllim çəkdirmişdi kitabın rəsmlərini, yaxşı da alınmışdı. Onun kitaba yazdığı ön sözü və son söz əvəzini dönə-dönə oxumuşam. Nə qədər mənalı, düşündürücü, sənətkarlıqla yazılmış publisistika nümunələridir. Şair yazıb ki, kitabın müəllifi "bir növ qəhrəmanlarının yarımçıq qalmış ömür yollarını mənzil başına çatdırmaq istəyib". "Ölsəm, inanma" kitabı 2000 tirajla nüfuzlu ziyalı və xeyriyyəçi Miri Qənbərovun sponsorluğu ilə nəşr edilmişdir.

Allahverdi Məmmədli 1947-ci ildə Yuxarı Anburdərə kəndində anadan olub. Atası Əbdül kişi Qazaxıstanın Cambul vilayətinə sürgün edilmişdi. 1952-ci ildə Allahverdigilin ailəsi də zorla Biləsuvarın Yuxarı Əmənkəndinə köçürülmüşdü. Allahverdi əvvəlcə Lənkəran pedaqoji məktəbini bitirmiş, Əmənkənddə müəllim işləmişdir. O, 1975-ci ildə ADU-nin jurnalistika fakültəsini bitirmiş, təyinatla Kənd Təsərrüfatı Nazirliyinin nəşriyyatında redaktor vəzifəsinə göndərilmişdir. Bir müddət Yazıçılar İttifaqının bədii ədəbiyyatın təbliği bürosunda, "Şəfqət" qəzetində redaktor müavini, sonra "Ulduz" jurnalında məsul katib işləmişdir. O, Yazıçılar Birliyinin üzvü idi, respublika və rayon mətbuatında çoxlu şeirləri, publisistik yazıları nəşr olunmuşdu, dörd kitabın müəllifi idi. Şeirləri rus, ukrain, gürcü, moldov, bolqar, türk dillərinə tərcümə olunaraq çap edilib. Bir neçə kitabın tərtibçisi və redaktoru idi, tərcümə ilə məşğul olurdu.

Yazının əvvəlində qeyd etmişəm ki, Allahverdi Məmmədlinin həyat yolu çətinliklərdən keçsə də, onun şəxsiyyəti, istedadı, vətənpərvərliyi, yurd təəssübkeşliyi, söz dəmək səlahiyyəti onun uzun müddət ürəklərdə, xatirələrdə yaşamağına zəmin yaradıb. Biz onun xatirəsini əbədiləşdirmək üçün az iş görsək də, Allahverdi Məmmədli uzaqdan görünən şair, söz sərrafı, sənətkar yazıçı idi. Onun nurlu xatirəsi heç vaxt unudulmayacaq.

***Hidayət Başirov,***
***Lerik Rayon Veteranlar Şurasının sədri***

## İLTİMAS SƏMİMİ



### ÜZÜNƏ HEYRƏTLƏ BAXSINLAR HƏR AN

Nə bəxtdən gileyli bir ömür yaşa,
Nə də ömür -günün uğursuz keçsin.
Su kimi saf olsun uğurlu sabahın,
Görən amalına durub and içsin.

O kimdir qəlbi saf, ürəyi pakdır,
Görən heyran olur düşüncəsinə.
O kimdir hiyləsi, kələyi yoxdur,
İnsanlar səs verir onun səsinə.

O kimdir köksündə dost ürəyi var,
Qaranlıq yollara çıraq tək saçır.
O kimdir, əzizim, o kimdir elə,
Bağlı qapıları bir sözlə açır.

Sözdəki hünərə, sözdəki gücə,
Eşidən heyrandır, eşidən heyran.
Əlçatmaz zirvə ol, daima elə,
Üzünə heyrətlə baxsınlar hər an.

### SƏNİ XATIRLAMAYA

Köksümdə
daş parçası,
qum dənəsi,
yağış damlası deyil,
ürəkdir.
Gözəlliyə həssas,
Sevgiyə meyilli,
Sevdiyinə sədaqətli
aldatmayan, aldanmayan ürək.
Susan deyil,
Ən çətin anda da ümidlə döyünər.
Sevib,
sevir,
sevəcək.
Mayası sevgidən,
qayası eşqdən
İstirablara dözən
bircə dəfə usanmayan ürək.
Sevib,
sevir,
sevəcək.

***

Ürəyim o ürəklərdən deyil ki,
səni xatırlamıya,
Əllərimdə saçlarının hərarəti,
gözlərimdə o sevdanın işığı,
ürəyimdə o günlərin sevinci.
Görüşdüyümüz anları hər dəfə
yadda salıb xatırlayanda,
Yaddaşımı varaqlayıb
dediyin xoş sözləri
yenidən yadda salıb,
yenidən o günlərə qayıdıram.
Ürəyim o ürəklərdən deyil ki,
səni xatırlamaya.

### XATİRƏLƏRƏ BAŞIN QARIŞMASIN

Ardınca yüyürüb gələn səs
çayların dənizə axdığı kimi,
axar qulaqlarına.
Bir ömür yüyürəsən
səs də ardınca yüyürüb
qovar səni.

Uzaqdan-uzağa korun - korun
yanan bir ocağın tüstüsü,
gah sağa, gah sola əyilər,
gah da dik havaya qalxacaq.

Tanış gəlirmi sənə bu dəniz,
bu sahil, bu çay, bu bulaq.
Dənizdə, sahildə, çayda, bulaqda,
Qəlbinə, ruhuna doğmadır ancaq.

Yollara dağılmış ağrılı -acılı
xatirələrə başın qarışmasın
yüyür ardınca bir səs,
bir səda gəlir.
Bir əl uzanıb,
bir baxış hönkürür,
bir nəfəs təngiyib.
Yüyür,
Yollara dağılmış ağrılı -acılı
xatirələrə başın qarışmasın

### AZƏRBAYCAN BAYRAĞI

Bir dəfə ucalmısan, enməzsən ucalıqdan,
Halallığı almısan sən göylərdən, sən Haqdan.
Bir mayağa dönmüsən, görünürsən uzaqdan,
Biz bir cənnət bilirik, kölgən düşən torpağı,
Azərbaycan bayrağı.

Ucaldığın zirvəyə düşmənin əli çatmaz,
Sənə güvənən oğul heç vaxt günaha batmaz.
Yurdun keşiyin çəkən, igid səngərdə yatmaz,
Nur tacına dönürsən, el-obamda sübh çağı,
Azərbaycan bayrağı.

Azadlıq günəşisən, səndən ilham alırıq,
Qarşında diz çökürük, sənə səcdə qılırıq.
Ucaldığın diyarda qorxmaz, igid oluruq
Vətənin şan-şöhrəti, elin qeyrət yarağı,
Azərbaycan bayrağı.

Sancıldığın zirvədən Dərbənd, Göyçə görünür,
Şəfəqin Borçalıda göy qurşağına dönür.
Savalanım, Təbrizim ümidlərə bürünür,
Məhəbbətin carçısı, din-imanın dayağı,
Azərbaycan bayrağı.

Şəhid qanı görmüsən zaman-zaman bu yolda,
Həqiqət simvolusan Xəzərin sularında.
Dalğalan Kəlbəcərdə, Laçında, Cəbrayılda
Şəfəqindən kor olsun, ayağa düşsün yağı,
Azərbaycan bayrağı.

***Əziz Musa***

### ATAMA

Atacan, yazıram bu şeiri sənə,
Deyə bilmədiyimi deyirəm sənə.
Sən məni yaşadan sağlam bir ürək,
De görüm, yazarmı sənsiz bu ürək.

Həyat acımasız yol cızdı sənə,
Atanı-ananı aldı apardı.
Bununla qalmayıb vurdu belindən.
Həyat yoldaşını aldı əlindən.

Başladı əzablı günlərin sənin,
Sevgisiz, qayğısız illərin sənin.
Həyat yoldaşından aldığın gücü
Yox edib apardı külək sel kimi.

Buna baxmayaraq durdun ayaqda,
Gözünün önünə gəldi yetimlər.
Çalışıb, vuruşdun, göz yaşlarını
Gizlətdin görməsin deyə uşaqlar.

Hər kəsdən qorudun övladlarını,
Qəlbində daşıdın ağrı-acını.
Bu ömür yolunda bircə gün belə
Deməədin nankordu həyatın yolu.

Məktəbə gedəndə gördük uşaqlar
Baxdıqca ağladıq anaları var.
Dedik ki, Allahım, şükürlər sənə,
Qayğımıza qalan bir atamız var.

***Nuridə Muradzadə***



Bəzi insanların vardı villası,
Ömürlük olmayan pulu, parası.
Zəngin o insandır ki, yanında duran
Vardır sənin kimi müdrik atası.

Atacan, bu dünya dərin bir quyu,
Enişi-yoxuşu keçilməz yolu.
Düşmənin də nifrət dolu baxışı
Ayağının tozu olsun hər zaman.

Canım atam, düşmənlərin yox olsun,
Qoy həmişə sevgilərin bol olsun.
Yaşadıqca həyatında hər zaman
Pulun, paran, xoşbəxtliyin çox olsun.

Nuri də yazdıqca sözləri bitmir,
Axı gözündə dayanan uzun illər var.
Çətinlik çəkəndə birinci ona
Özünü yetirən bir atası var.


### ELAN

Rvarud kənd orta məktəbi tərəfindən Hacıyev Faiq Xanmirzə oğluna verilmiş 28 iyun 2000-ci il tarixində verilmiş B ?720890 saylı attestat itdiyi üçün etibarsız sayılır.





**Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası**

**Redaktor: İdris ŞÜKÜRLÜ**

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.

Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.

Sifariş: 268 Tiraj: 600

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AIIB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.